


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 123 (23.765)

*9 iyul 2021-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 8 iyul tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarında səmərəli fəaliyyətinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif edilənlər arasında Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin əməkdaşı da vardır:

**Məmmədov Eldar Həsən oğlu**

"Diplomatik xidmətdə fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.

## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyası keçirilib





İyulun 8-də altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyası keçirilmişdir.

Sessiyanın gündəliyinə aşağıdakı məsələlər verilmişdir.

1. 2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları

2. Naxçıvan Muxtar Respublikasının 2020-ci il dövlət büdcəsinin icrasının təsdiq edilməsi

Gündəlikdə duran birinci məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikası Baş Nazirinin birinci müavini Elşad Əliyev çıxış edərək demişdir ki, aqrar sahədə həyata keçirilən kompleks tədbirlər kənd təsərrüfatının davamlı və dinamik inkişafını təmin etmişdir. Bu ilin ötən dövründə 339 hektar sahədə qapalı suvarma şəbəkəsinin, 3200 hektar əkin sahəsini suvarma suyu ilə təmin edəcək yeni nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi davam etdirilmişdir. Muxtar respublikada süni mayalanma işi diqqətdə saxlanılmış, 7 min 100 baş ana mal və camış mayalandırılmış, 6 min 200 baş cins bala alınmışdır. Arıçılığın inkişafı ilə bağlı işlər də görülmüş, arı ailələrinin sayı 99 min 935-ə çatdırılmışdır. Tingçilik kompleksi və "İqlim otağı"nda bu ilin ötən dövründə 6 min 400 meyvə, 12 min 700 həmişəyaşıl ting, 8 min 400 bəzək və gül kolları yetişdirilmişdir. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən cari ilin birinci yarısında 261 texnika və texnoloji avadanlıq alınmış, 243 texnika və 142 texnoloji avadanlıq lizinq yolu ilə mülkiyyətçilərə verilərək dövlət tərəfindən 840 min manat güzəşt tətbiq olunmuşdur. Cari ilin məhsulu üçün ötən ilin payızında və bu ilin yazında muxtar respublika üzrə 32 min 721 hektar sahədə taxıl əkini aparılmışdır. Hazırda muxtar respublikada 24 min 406 hektar sahənin taxılı biçilərək 76 min 109 ton məhsul toplanmışdır. Hər hektarın orta məhsuldarlığı 31,2 sentnerdir. Bu il buğdanın hər kiloqramının 45, arpa və qarğıdalının isə hər kiloqramının 40 qəpikdən qəbulu həyata keçirilir. 2021-ci ildə muxtar respublikada 26 min 379 hektar sahədə isə yazlıq əkin keçirilmiş, kənd təsərrüfatının inkişafı ilə bağlı banklar və kredit təşkilatları tərəfindən 7 milyon 265 min 900 manat kredit verilmiş, məhsul istehsalçıları 7 min 542 ton mineral gübrə ilə təmin olunmuşdur. Bu ilin ötən dövründə şənbə, bazar, Novruz bayramı günlərində kənd təsərrüfatı və 22-23 may tarixlərində keçirilmiş Göycə məhsullarının satışı yarmarkalarında 3 milyon 200 min manatlıq 3 min ton kənd təsərrüfatı məhsulu satılmışdır. 2021-ci ilin ötən dövründə muxtar respublikada diri çəkidə 13 min 81 ton ət, 51 min 138 ton süd, 871 ton yun, 62 milyon 972 min yumurta istehsal edilmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 3,3 faiz, süd istehsalı 1,8 faiz, yun istehsalı 1,4 faiz, yumurta istehsalı 13,9 faiz artmışdır. 2021-ci ilin ötən dövründə kənd təsərrüfatının ümumi məhsulu 145 milyon 684 min manat təşkil etmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev çıxış edərək demişdir ki, muxtar respublika iqtisadiyyatının bütün sahələr üzrə dinamik inkişafı cari ilin ötən dövründə də davam etdirilmiş, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşmış, yeni iş yerləri açılmış, əhalinin maddi-rifah halı yüksəlmişdir. Cari ilin 6 ayı ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən 3 layihənin maliyyələşdirilməsinə 110 min manat, kənd təsərrüfatının inkişafı yönümlü 56 layihənin maliyyələşdirilməsinə isə 1 milyon 404 min manat məbləğində dövlət maliyyə dəstəyi göstərilmişdir. Həmçinin "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Sahibkarlığın İnkişafı Fondunun güzəştli kredit vəsaiti hesabına ümumi tutumu 800 ton olan yeni soyuducu anbarın yaradılması başa çatdırılmışdır. Muxtar respublikada daxili bazarın daha keyfiyyətli və ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsulları ilə təminatı məqsədilə 34 ailə təsərrüfatına 519 min manatdan çox dövlət maliyyə dəstəyi göstərilmişdir. Sahibkarlığın İnkişafı Fondu tərəfindən cari ilin ötən dövrü ərzində 60 layihənin maliyyələşdirilməsinə 1 milyon 542 min manat həcmində dövlət maliyyə dəstəyi ayrılmışdır. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi məqsədilə xüsusi fəaliyyət növləri üzrə 730 lisenziya verilmişdir. İnvestisiya qoyuluşu və ixracın stimullaşdırılması məqsədilə 3 milyon 108 min 212 manat dəyərində bir investisiya layihəsi üzrə investisiya təşviqi və təsdiqedici sənədi verilmişdir. Keyfiyyət və təhlükəsizlik göstəricilərinin qiymətləndirilməsi ilə bağlı 273 səyyari və 1015 halda mal nümunəsi laboratoriya analizindən keçirilmişdir. Süni qiymət artımının qarşısının alınması məqsədilə 13 min 242 çeşiddə məhsul və onların qiymətlərinə nəzarət olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları barədə məruzə etmişdir **(Ali Məclis Sədrinin məruzəsi qəzetin bugünkü nömrəsində dərc olunur).**

Gündəlikdə duran ikinci məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikasının Maliyyə naziri Rafael Əliyev çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin gəlirləri 2020-ci ildə 113 milyon 200 min manat plana qarşı 116 milyon 718 min 58 manat və ya 103,1 faiz icra edilmiş, büdcəyə 3 milyon 518 min 58 manat artıq vəsait mədaxil edilmişdir. Gəlirlərin 76 faizi və ya 88 milyon 685 min 886 manatı Dövlət Vergi Xidmətinin xətti ilə, 21,4 faizi və ya 24 milyon 956 min 167 manatı Dövlət Gömrük Komitəsinin xətti ilə toplanılmış, 2,3 faizi və ya 2 milyon 740 min 408 manatı büdcə təşkilatlarının ödənişli xidmətlərindən, 0,3 faizi və ya 335 min 597 manatı isə digər mənbələr hesabına daxil olmuşdur. 2020-ci il dövlət büdcəsinin xərcləri 485 milyon 345 min 483 manat olmuş, xərclərin 91,2 faizi və ya 442 milyon 478 min 104 manatı cari xərclərə, 8,8 faizi və ya 42 milyon 867 min 379 manatı isə əsaslı xərclərə yönəldilmişdir. Əsaslı vəsait qoyuluşu xərclərinin böyük hissəsi muxtar respublikada quruculuq və abadlaşdırma işlərinin aparılmasına, yerli idarəetmə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin tikintisinə, şəhər və kənd daxili avtomobil yollarının yenidən qurulmasına, eyni zamanda infrastrukturun yenilənməsi layihələrinin maliyyələşdirilməsinə yönəldilmişdir. 2020-ci il ərzində respublika büdcəsindən investisiya layihələrinin həyata keçirilməsi üçün muxtar respublikaya, ümumilikdə, 43 milyon 700 min manat vəsait ayrılmışdır. Dövlət büdcəsinin icrası zamanı dövlət büdcəsindən maliyyələşən və ya maliyyə yardımı alan tikinti-quraşdırma işləri aparan təşkilatlar tərəfindən satın alınan bütün mal-material və avadanlıqların real dəyəri ilə satın alınmasına nəzarət edilmiş, müvafiq araşdırmalar aparılaraq layihələr yenidən qiymətləndirilmiş, bu əsasda 2020-ci il ərzində 3 milyon 816 min manatdan çox büdcə vəsaitinin əsassız xərclənməsinin qarşısı alınmışdır.

Sessiyada "Naxçıvan Muxtar Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu səsə qoyularaq qəbul olunmuşdur.

Ali Məclisin Sədri 2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında əməyi, sabitliyin və təhlükəsizliyin qorunmasında xidməti olanlara təşəkkürünü bildirmiş, qarşıdakı dövrdə inkişafın təmin olunmasında sessiya iştirakçılarına, muxtar respublika sakinlərinə uğurlar arzulamışdır.

Bununla da altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyası öz işini başa çatdırmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun MƏRUZƏSİ

Hörmətli deputatlar və sessiya iştirakçıları!

Naxçıvan Muxtar Respublikasında 2021-ci ilin birinci yarısında bütün sahələrdə inkişaf təmin edilmiş, quruculuq işləri aparılmış, əhalinin rifahı daha da yaxşılaşdırılmışdır. Bu dövrün ən mühüm hadisəsi mayın 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin muxtar respublikaya səfəri olmuşdur.

Səfər zamanı dövlət başçısının iştirakı ilə "Naxçıvan" Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağı, Əlahiddə Ümumqoşun Ordunun Hərbi Aerodrom Kompleksi, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialı, Naxçıvan Qarnizonu Mərkəzi Hospitalı, Süni Mayalanma Mərkəzi, Culfa-Ordubad magistral avtomobil yolu, eləcə də Ordubad şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin açılışı olmuşdur. Həmçinin ölkə Prezidenti Naxçıvan şəhərində ulu öndərin abidəsini və İkinci Qarabağ müharibəsi şəhidlərinin məzarlarını ziyarət etmiş, "ASAN" Xidmət Mərkəzinin və "Ordubad" Su Elektrik Stansiyasının tikintisi, eləcə də Ordubad Dəmir Yolu Stansiyası ilə tanış olmuşdur.

Muxtar respublikanın inkişafını yüksək qiymətləndirən ölkə Prezidenti demişdir: ***"Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin Vətənidir... Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu gün ulu öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax, bu inkişafda təcəssüm etdirir".***

2021-ci ilin birinci yarısında muxtar respublikada həyata keçirilən ardıcıl tədbirlər sosial-iqtisadi tərəqqiyə öz töhfəsini vermiş, dayanıqlı və tarazlı inkişaf təmin olunmuşdur. Cari ilin birinci yarısında ümumi daxili məhsulun həcmi 1 milyard 328 milyon manat olmuşdur ki, bunun da 86 faizi özəl bölmənin payına düşmüşdür.

*Ardı 2-ci səhifədə*



Ötən dövrdə muxtar respublikada sahibkarlıq fəaliyyətinin təşviqi məqsədilə 18 milyon manata yaxın kredit verilmiş, 55 yeni istehsal və xidmət sahəsi yaradılmışdır. Hazırda muxtar respublikada 384 növdə məhsulun istehsal olunması dayanıqlı inkişafın nəticəsi kimi mühüm əhəmiyyətə malikdir.

Ötən 6 ayda muxtar respublikada 116 obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilmiş, 168 obyektin tikintisi və yenidən qurulması isə davam etdirilmişdir. Xüsusilə Duzdağda yeni şaxtanın istifadəyə verilməsi mühüm iqtisadi əhəmiyyəti ilə yanaşı, həm də təbii sərvətimiz olan duzun müasir metodlarla çıxarılması, emalı və ixracına geniş imkanlar açmışdır.

2021-ci ilin birinci yarısında muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması sahəsində də sistemli tədbirlər görülmüş, bərpa olunan enerji mənbələrindən istifadə diqqət mərkəzində saxlanılmışdır. Bu dövrdə Şərur rayonunda 5 meqavat gücündə Günəş Elektrik Stansiyasının, Culfa rayonunda isə 1,1 meqavat gücündə Günəş-Külək Hibrid Elektrik Stansiyasının istifadəyə verilməsi muxtar respublikanın enerji tələbatının ödənilməsində alternativ və bərpa olunan enerji mənbələrinin payını artırmışdır.

İlin birinci yarısında əldə edilmiş sosial-iqtisadi inkişaf bundan sonra da davam etdirilməlidir.

**Maliyyə Nazirliyi** dövlət büdcəsinin icrasına nəzarət tədbirlərini gücləndirməli, büdcə vəsaitlərindən təyinatdan kənar və qanunsuz istifadənin qarşısı alınmalı, əlavə xərclərə yol verilməməlidir.

**İqtisadiyyat Nazirliyi və Dövlət Gömrük Komitəsi** daxili bazarın qorunması və idxalın tənzimlənməsi ilə bağlı verilmiş tapşırıqların icrasını nəzarətdə saxlamalıdırlar.

Araşdırmalar zamanı məlum olmuşdur ki, bəzi hallarda sahibkarlıq subyektləri vergiödəyicisi kimi qeydiyyata alınmazdan əvvəl müvafiq lisenziya, icazə və digər zəruri sənədlərlə təmin olunması yoxlanılmır. **Dövlət Vergi Xidməti** məsələni diqqətdə saxlamalı və nöqsanlar təkrar olunmamalıdır.

Ailə təsərrüfatlarının və sahibkarlığın inkişafı qarşıda duran əsas vəzifələrdir. Hər il muxtar respublikada bu məqsədlə tədbirlər görülür, kreditlər verilir. **Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və İqtisadiyyat Nazirliyi** muxtar respublikada kredit təşkilatları tərəfindən ailə təsərrüfatlarının, sahibkarlıq subyektlərinin kreditləşdirilməsinə və kreditlərin təyinatı üzrə düzgün istifadəsinə nəzarəti artırmalı, **Dövlət Vergi Xidməti** ilə birlikdə nağdsız ödəniş dövriyyəsinin artırılması məqsədilə tədbirlər görülməlidir.

Bir çox hallarda sahibkarlıq müəssisələri yaradılarkən daxili tələbat və ixrac imkanları düzgün təhlil edilmir ki, bu da rentabellik göstəricilərini aşağı salır. **İqtisadiyyat Nazirliyi** yeni istehsal sahələri yaradılarkən daxili bazarın tələbatını və ixrac imkanlarını, həmçinin ixrac bazarlarında baş verən tendensiyaları və biznes planları düzgün təhlil etməli, yerli xammala əsaslanan istehsal sahələrinin yaradılmasına üstünlük verilməlidir.

Muxtar respublikada sahibkarlıq müəssisələrinin fəaliyyətinə müdaxilə hallarının qarşısı alınıb. Lakin **Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin** sahibkarlıq subyektlərinə əsassız müdaxilələri müşahidə olunmuşdur. Yol verilən bu nöqsan bir daha təkrarlanmamalıdır.

Muxtar respublikada aqrar islahatların əhatə dairəsi xeyli genişləndirilmişdir. Xüsusilə mütərəqqi əkin və suvarma metodlarının tətbiqi, subsidiyaların verilməsi kənd təsərrüfatına marağı artırmışdır. Lakin hələ də mütərəqqi əkin metodlarını tətbiq etməyən, ayrılan subsidiya və gübrələrdən təyinatı üzrə istifadə etməyən təsərrüfat sahibləri vardır. **Kənd Təsərrüfatı Nazirliyi və icra hakimiyyətləri** qeyd olunan məsələ ilə bağlı ciddi ölçü götürməli, subsidiyalardan təyinata uyğun istifadə edilməli, intensiv metodlara üstünlük verilməli, əkin atlaslarından istifadə diqqət mərkəzində saxlanılmalıdır.

**Kənd Təsərrüfatı Nazirliyi İqtisadiyyat Nazirliyi** ilə birlikdə yarmarkaların təşkilini, soyuducu anbarlara məhsul qəbulunun tələbata uyğun davam etdirilməsini və ehtiyatların yaradılmasını diqqətdə saxlamalıdır.

Babək, Şərur, Ordubad və Şahbuz rayonlarında kənd təsərrüfatına yararlı torpaqlardan qanunsuz istifadə və zəbt halları daha çox müşahidə olunur. **Naxçıvan Muxtar Respublikası Prokurorluğu, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti və aid icra hakimiyyətləri** birlikdə kənd təsərrüfatına yararlı torpaq sahələrindən kənar məqsədlər üçün istifadənin qarşısını almalı və həmin torpaqlar əkin dövriyyəsinə qatılmalıdır.

Hər il muxtar respublikada geniş meliorasiya və irriqasiya tədbirləri həyata keçirilir, yeni hidrotexniki qurğular istifadəyə verilir. Buna baxmayaraq, yerlərdə suvarma suyu təminatından, xüsusilə Babək rayonundan Ali Məclisə müraciətlərin daxil olması işin düzgün təşkil olunmadığını göstərir. **"Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyəti icra hakimiyyətləri** ilə birlikdə suvarma suyundan düzgün istifadə və mövsüm ərzində suvarma tədbirlərinin səmərəli təşkilini diqqətdə saxlamalı, əkin sahələrinin su təminatı qaydalar daxilində həyata keçirilməlidir.

Muxtar respublikada aparılan abadlıq-quruculuq tədbirlərinin miqyasının ildən-ilə genişlənməsinə baxmayaraq, bəzi hallarda mühəndis-texniki tələblərə əməl olunmadığını görürük. Bu da qeyd olunan istiqamətdə nəzarətin daha da gücləndirilməsini zəruri edir. **Dövlət Şəhərsalma və Arxitektura Komitəsi** tikinti işlərinin keyfiyyətinə nəzarəti artırmalıdır.

**Avtomobil Yolları Dövlət Agentliyi** yol tikintisində keyfiyyət amilini diqqətdə saxlamalı, **Dövlət Nəqliyyat Xidməti** ictimai nəqliyyatda xidmətin səviyyəsini yüksəltməli, nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət olunmalıdır.

Bir vaxtlar elektrik enerjisini idxal hesabına təmin edən muxtar respublikada bu gün enerji təhlükəsizliyi tam təmin edilib, ixrac potensialı yaranıb, bütün yaşayış məntəqələri qazlaşdırılıb. **Dövlət Energetika Xidməti və Qaz İstismar Xidməti** yerlərdə itkinin minimum həddə saxlanılması üçün tədbirlər görməlidir.

Muxtar respublikanın ərazisi sürətli və dayanıqlı internetlə təmin olunub, iqtisadiyyatın bütün sahələrində yeni texnologiyalar tətbiq olunur. **Rabitə və Yeni Texnologiyalar Nazirliyi** rabitə və internet xidmətlərinin keyfiyyətini daha da yüksəltməli, internet verilişində qırılmaların qarşısı alınmalı, ixtisaslı kadrların hazırlanması davam etdirilməlidir.

**Təhsil Nazirliyi** təhsil müəssisələrində maddi-texniki bazadan və yaradılan tədris imkanlarından düzgün istifadə etməli, müəllimlərin ixtisas və peşə biliklərinin artırılması davam etdirilməli, STEAM təhsil metodunun tətbiqi bu ilin sonunadək başa çatdırılmalıdır.

Muxtar respublikanın mədəniyyət müəssisələrində nöqsanlar aşkar olunmuşdur. Xüsusilə musiqi təhsili müəssisələrinin fəaliyyəti düzgün qurulmamış, kadr hazırlığı sahəsində nöqsanlara yol verilmişdir. **Mədəniyyət Nazirliyi** tabeliyində olan müəssisə və təşkilatlarda kadrların peşə hazırlığının artırılmasına və düzgün yerləşdirilməsinə nəzarəti gücləndirməli, fəaliyyət günün tələbləri səviyyəsində qurulmalıdır.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** muxtar respublikada əhalinin səmərəli məşğulluğuna yönəldilən tədbirləri davam etdirməli, əmək yarmarkaları keçirilməli, özünüməşğulluq proqramı üzrə görülən işlərin nəticəli olmasına çalışılmalıdır.

**Səhiyyə Nazirliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** ilə birlikdə pensiya təyinatını qanunvericiliyin tələblərinə uyğun aparmalı, bu sahədəki çatışmazlıqlar aradan qaldırılmalıdır. Həmçinin **Səhiyyə Nazirliyi** tibbi xidmətin keyfiyyətini yüksəltməli, həkim hazırlığı işinə diqqəti artırmalı, yoluxucu xəstəliklərə qarşı tədbirlər davam etdirilməli, sanitariya-gigiyena normalarına riayət olunması müntəzəm nəzarətdə saxlanılmalıdır.

Qarşıda duran əsas vəzifələrdən biri də rayonların iqtisadi potensialından səmərəli istifadə etmək, özəl bölməyə qayğı göstərmək və ailə təsərrüfatlarının yaradılmasına dəstək verməkdir. Etiraf etmək lazımdır ki, icra hakimiyyətlərinin bu sahədəki təşəbbüskarlığı zəifdir. Hər bir rayonun potensialı düzgün təhlil edilməli, **icra hakimiyyətləri** yeni sahibkarlıq müəssisələrinin yaradılması və ailə təsərrüfatlarının inkişafı ilə bağlı təkliflər verməlidir.

**Dövlət Sığorta Xidməti** muxtar respublikada sığorta işini təkmilləşdirməli, könüllü sığortanın və səyyar xidmətin əhatə dairəsini genişləndirməlidir.

Sosial-iqtisadi inkişafın təmin olunması işin bir tərəfidir. Əsas məsələ isə düzgün statistik təhlil və proqnozların hazırlanmasıdır. **Dövlət Statistika Komitəsi mərkəzi və yerli icra hakimiyyəti orqanları** ilə işi düzgün təşkil etməli, muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı hazırlanan hesabatların təhlilli, obyektiv və müqayisəli işlənməsinə nail olmalı, qanunvericiliyə uyğun olaraq sosial-iqtisadi inkişaf göstəricilərinin ictimailəşdirilməsi təmin edilməlidir.

Hər il muxtar respublikada yüzlərlə hektar yaşıllıq salınır, ekoloji tədbirlər görülür. Lakin bəzi hallarda laqeydlik nəticəsində yaşıllıq zolaqlarının quruduğunun şahidi oluruq. **Ekologiya və Təbii Sərvətlər Nazirliyi yerli icra orqanları** ilə birlikdə mövcud yaşıllıq zolaqlarının qorunmasına diqqəti artırmalı, muxtar respublikanın su mühitinin və onun tərkibinin yoxlanılmasını diqqətdə saxlamalı, payız əkini dövründə yeni bağlar salınmalı və bərpa əkinləri aparılmalıdır.

Bu gün baytarlıq təbabətinin inkişafı məqsədilə həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikada epizootik vəziyyət sabitdir. **Dövlət Baytarlıq Xidməti** bundan sonra da epizootik vəziyyəti nəzarətdə saxlamalı, süni mayalanma işinə və mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına, bu sahədə mütəxəssis hazırlığına diqqəti artırmalıdır.

**"Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti** tələbata uyğun müasir texnika və texnoloji avadanlıqların, suvarma sistemlərinin və arıçılıq ləvazimatlarının, eləcə də gübrələrin alınıb gətirilməsini və lizinq yolu ilə satışını davam etdirməli, yeni alınmış texnikalar, əsasən, bu sahədə təcrübəsi olan şəxslərə verilməli və onlardan səmərəli istifadəyə nəzarət olunmalıdır.

Gənclik böyük potensialdır. Ondan düzgün istifadə isə sağlam gələcəyin təminatıdır. **Gənclər və İdman Nazirliyi** gənclərlə işə diqqəti artırmalı, idman federasiyaları ilə birgə yarışlar keçirilməli, Dövlət proqramının icrası təmin edilməlidir.

Naxçıvanın tarixi, mədəniyyəti, təbiəti, müasir inkişafı və digər xüsusiyyətləri turizmin inkişafı üçün geniş imkanlar açır. Lakin bu sahədə internet resurslarının və sosial medianın imkanlarından səmərəli istifadə olunmur, turizm-informasiya siyasəti günün reallıqlarını əks etdirmir. **Turizm Departamenti** post pandemiya dövrünə hazır olmalı, muxtar respublikanın turizm potensialı ilə bağlı düzgün təbliğat mexanizmi müəyyənləşdirməli, yerli və xarici turizm şirkətləri ilə əlaqələr qurmalıdır.

**Dövlət İmtahan Mərkəzi** dövlət qulluğuna dair qanunvericiliyin tətbiqini nəzarətdə saxlamalı, dövlət qurumlarında attestasiya, sertifikasiya və işə qəbul imtahanlarının mərhələli keçirilməsinə nail olunmalı, test bazası mütəmadi zənginləşdirilməlidir.

**Dövlət Arxiv İdarəsi** "Naxçıvan Muxtar Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı"nın icrasını davam etdirməli, arxiv işi təkmilləşdirilməlidir.

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi** səhiyyə müəssisələri ilə qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyətini qurmalı, icbari tibbi sığorta haqlarının düzgün istifadə olunmasına nəzarəti artırmalıdır.

**Dövlət Sosial Müdafiə Fondu** əmək pensiyalarının təyinatına və məcburi dövlət sosial sığorta hesabına ödənişlərin verilməsinə nəzarət etməli, növbəti ildən dövlət icbari şəxsi sığortasını həyata keçirmək üçün tədbirlər görməlidir.

Muxtar respublikada yaradılan şərait elmin inkişafına və istehsalatda tətbiqinə geniş imkanlar açır. **Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi** elmi tədqiqatların səmərəliliyinə diqqəti artırmalı, gənc tədqiqatçıların hazırlanması və elmin istehsalatda tətbiqi ilə bağlı konkret təkliflər verməlidir.

Muxtar respublikada digər təhsil pillələri ilə yanaşı, ali təhsil üçün də hərtərəfli şərait yaradılıb. **Ali təhsil müəssisələri** mövcud imkanlardan səmərəli istifadə etməli, xarici tələbələrin sayı artırılmalı, tədris və elmi-metodik iş günün tələbləri səviyyəsində qurulmalı, startap hərəkatı və innovativ metodların təhsildə tətbiqi əsas istiqamət kimi götürülməlidir.

**Gənclər Fondu** gənclərin bilik və bacarıqlarının, vətənpərvərlik hisslərinin artırılması sahəsində tədbirlər görməli, onların könüllülüyə cəlbinə nail olmalı, **Yaradıcılıq birlikləri** fəaliyyətlərini günün tələbləri səviyyəsində qurmalıdır.

**Hüquq-mühafizə orqanları** profilaktika tədbirlərini davam etdirməli, ictimai asayişin və sabitliyin qorunması daim diqqətdə saxlanılmalıdır. **Ordu, birləşmə və hərbi hissə** komandirləri döyüş hazırlığını daha da yüksəltməli, ehtiyatları qoruyub saxlamalı və artırmalı, payız-qış mövsümünə hazırlıq görülməlidir.

**Ədliyyə Nazirliyi** sahibkarlıq müəssisələrində əsassız yoxlamaların qarşısının alınması üçün zəruri tədbirlər görməli, məhkəmə qərarlarının vaxtında icra olunmasına və bələdiyyələr tərəfindən torpaqlardan qanunauyğun istifadəyə nəzarəti gücləndirməlidir.

**Daxili İşlər Nazirliyi** yol polisinin fəaliyyətinin qanunvericiliyə uyğun qurulmasını nəzarətdə saxlamalı, bu sahədə xidmət edən əməkdaşların hüquqi bilikləri artırılmalıdır.

**Fövqəladə Hallar Nazirliyi** taxılın və digər sahələrin yanğından mühafizəsinə diqqəti artırmalıdır.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu** qanunların icra və tətbiq olunmasına nəzarəti daha təsirli formada həyata keçirməlidir.

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti** hərbi həkim komissiyalarının fəaliyyətinə nəzarəti artırmalı, uçot-qeydiyyat sənədlərinin düzgün yazılmasını diqqətdə saxlamalıdır.

**Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu** qanunvericiliyə uyğun olaraq öz səlahiyyətləri daxilində hərbi nizamnamənin tələblərinə əməl olunmasına nəzarət etməli, hərbi nizam-intizamın daha da möhkəmləndirilməsi üçün zəruri tədbirlər görməlidir.

Muxtar respublikanın **kütləvi informasiya vasitələrində** fəaliyyət üçün geniş imkanlar yaradılıb. Lakin maddi-texniki bazadan və yaradıcılıq imkanlarından səmərəli istifadə sahəsində nöqsanlara yol verilir. Xüsusilə aparılan islahatlardan sonra Naxçıvan teleradiosunda fəaliyyət yeni tələblər əsasında qurulmalı, "Şərq qapısı", şəhər və rayon qəzetləri informasiya-məlumatlandırma işinin keyfiyyətini artırmalıdır.

Hörmətli sessiya iştirakçıları!

Məqsədimiz ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu inkişaf, sabitlik və rifahı daha da möhkəmləndirməkdir. Bu yolda və qarşıya qoyulan vəzifələrin icrasında hər birinizə uğurlar arzulayır, çıxışımı ölkə Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlayıram: ***"Muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır".***

Sağ olun!

## Naxçıvan Muxtar Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası haqqında Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Naxçıvan Muxtar Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası gəlirlər üzrə 116 718 058 manat, xərclər üzrə 485 345 483 manat məbləğində olmaqla təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 8 iyul 2021-ci il*

# Diplomatiya xalqın milli maraqlarına xidmət edir



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il 24 avqust tarixli Sərəncamına əsasən 9 iyul Azərbaycan Diplomatlarının Peşə Bayramı Günü elan edilmişdir.***

Müstəqil xarici siyasət, beynəlxalq arenada önəmli mövqe, qüdrətli ordu, güclü iqtisadiyyat və qalib ölkə – bu ifadələr tarixinin ən şanlı dövrlərindən birini yaşayan Azərbaycanın müasir reallıqlarını ən gözəl şəkildə təsvir edir. Prezident cənab İlham Əliyevin dərin siyasi bilikləri, təcrübəsi və diplomatiya elminə mükəmməl bələd olması hesabına qazanılmış həmin reallıqlar nəticəsində bu gün Azərbaycan diplomatları peşə bayramlarını müzəffər xalqın qalib diplomatları olaraq qeyd edirlər.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən və ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra digər sahələrdə olduğu kimi, diplomatiya sahəsində də mühüm uğurlar əldə olunmuşdur. Ümummilli liderin rəhbərliyi ilə ölkəmizin tarazlaşdırılmış xarici siyasətinin həyata keçirilməsi Azərbaycanı beynəlxalq birliyin nüfuzlu üzvünə çevirmişdir. Ulu öndərin təşəbbüsü və rəhbərliyi altında elmi və milli əsaslara, dərindən düşünülmüş konsepsiyaya söykənən xarici siyasət prinsipləri bərqərar olmuş, bu sahənin inkişafına xidmət edən mühüm qərarlar qəbul edilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkəmizin xarici siyasətinin mahiyyət və vəzifələrini müəyyənləşdirərək demişdir: ***“Xarici siyasət, ilk növbədə, Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Əsas vəzifəmiz dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir”.***

Yeni siyasi kursun uğurla həyata keçirilməsi tezliklə öz bəhrəsini vermiş, dünyanın müxtəlif dövlətləri ilə ikitərəfli və çoxtərəfli münasibətlər yaradılmış, Azərbaycan həqiqətləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmışdır. Bu dövrdən etibarən Azərbaycanın geosiyasi vəziyyətinin və beynəlxalq siyasətə təsiretmə imkanlarının dərin nəzəri təhlili aparılmış və buna uyğun olaraq xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edilmişdir. İlk növbədə, müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, xarici ölkələrlə əlaqələrinin yaxın dövr üçün prioritetləri, əsas istiqamətləri müəyyənləşdirilmişdir.

Ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik irsinin varisi və onun uğurlu davamçısı ölkə Prezidenti cənab İlham Əliyevin hakimiyyəti illərində də məqsədyönlü və milli maraqlara cavab verən xarici siyasət nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrilmiş və ciddi uğurlara imza atmışdır. Hazırda BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası, ATƏT və digər nüfuzlu beynəlxalq və regional təşkilatlarla səmərəli əməkdaşlıq aparılır. 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməsi ölkəmizin beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir. Son zamanlar Azərbaycanın irəli sürdüyü təkliflər və təşəbbüslər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın yeni istiqamətlərini müəyyən edir və səmərəliliyin artırılmasında mühüm rol oynayır. Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə Türk Şurası və Qoşulmama Hərəkatının COVID-19 pandemiyasına qarşı mübarizəyə həsr olunan Zirvə görüşləri, eləcə də BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi, həmçinin ötən il Azərbaycanın Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat-GUAM və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik etməsi ölkəmizə və dövlətimizin başçısına beynəlxalq arenada olan böyük hörmətin göstəricisidir.

Azərbaycanın təşəbbüsü və yaxud dəstəyi ilə reallığa qovuşmuş Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Cənub Qaz Dəhlizi kimi beynəlxalq layihələr ölkəmizin iqtisadi potensialını gücləndirmişdir. 2018-ci ildə Avropanın enerji təhlükəsizliyində böyük rola malik Cənub Qaz Dəhlizinin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimləri keçirilmişdir. TAP layihəsi ilə bağlı işlərin yekunlaşması ərəfəsində “Əsrin müqaviləsi” 2050-ci ilə qədər uzadılmışdır.

Öz xarici siyasətində humanitar və mədəni diplomatiya kursuna xüsusi əhəmiyyət verən Azərbaycan Respublikası “Bakı prosesi”, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Bakı Humanitar Forumu kimi beynəlxalq layihələrin təşəbbüskarı və mühüm iştirakçısı olmaqla, multikulturalizmin, mədəniyyətlər və dinlərarası dialoqun inkişafına töhfə verməkdə davam edir.

“Hücum diplomatiyası” kimi xarakterizə olunan yuxarıdakı səylər və Prezident cənab İlham Əliyevin bütün səfərləri, keçirdiyi görüşlər, mötəbər tribunalarda etdiyi çıxışlar ancaq bir amala – Azərbaycanın dövlətçiliyinə, əlbəttə, onun milli maraqlarına və son 30 ilin ən ağrılı hadisəsi olan torpaqlarımızın işğalının və onun acı nəticələrinin aradan qaldırılmasına hesablanmışdı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində ümummilli lider Heydər Əliyevin ***“Hər bir azərbaycanlı bilməlidir və hazır olmalıdır ki, əgər bizim bütün cəhdlərimiz nəticə verməsə, nəyin bahasına olursa-olsun, canımızın, qanımızın bahasına olsa da, işğal olunmuş torpaqlarımızı azad etməli, Azərbaycanın sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü təmin etməliyik”*** fikirləri rəhbər tutulmuş və ordumuz ötən il sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsində qələbə qazanaraq torpaqlarımızı işğaldan azad etmişdir. Məğlubiyyətini dərk edən işğalçı Ermənistan Prezident cənab İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul edərək 10 noyabr 2020-ci il tarixli kapitulyasiya sənədini imzalamışdır. Beləliklə, ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyası sayəsində qorunub saxlanılan dövlət müstəqilliyimiz, onun layiqli davamçısı cənab İlham Əliyevin diplomatik məharəti sayəsində ərazi bütövlüyümüzün bərpa edilməsi ilə nəticələnmiş və Azərbaycan xalqı özünün keşməkeşli diplomatiya tarixinin daha bir şanlı səhifəsini yazmışdır. Dövlət başçısı demişdir: ***“Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır”.***

Xüsusi qeyd olunmalıdır ki, istər 10 noyabr Bəyannaməsi, istərsə də cari ilin 15 iyun tarixli Şuşa Bəyannaməsi Azərbaycanın xarici siyasətində Naxçıvanın mühüm əhəmiyyətini bir daha sübut etmişdir. Azərbaycanın qərb bölgəsi ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin bərpasını nəzərdə tutan Zəngəzur dəhlizinin reallaşdırılması bütün bölgə ölkələri üçün mühüm iqtisadi faydalar gətirməklə bərabər, muxtar respublikanın təhlükəsizliyinin təmin olunmasına geniş imkan yaradacaqdır. Şuşa Bəyannaməsində isə Naxçıvanın muxtariyyət statusunu müəyyənləşdirən Qars müqaviləsinin 100-cü ildönümünün xatırlanması da rəmzi məna daşıyır.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da tarixən diplomatik əlaqələrin mühüm ənənələri formalaşdırılmışdır. X əsrdə Naxçıvan şahlığının, XII əsrdə qüdrətli Atabəylər dövlətinin, XVIII əsrdə Naxçıvan xanlığının, 1918-ci ildə Araz-Türk Respublikasının paytaxtı olmuş beşminillik şəhər mədəniyyətinə malik Naxçıvan Azərbaycan dövlətçiliyinin, siyasi və diplomatik münasibətlər sisteminin formalaşmasına böyük töhfələr vermişdir. Naxçıvan xanlarından Heydərqulu xan, Abbasqulu xan və Cəfərqulu xan xanlığın xarici siyasətinə bilavasitə rəhbərlik etmiş, Kalbalı xan isə XVIII əsrin nüfuzlu siyasi lideri və diplomatı kimi məşhurlaşmışdır. Naxçıvanın Azərbaycan Xalq Cümhuriyyəti ilə birləşməsi üçün böyük səylər göstərən Araz-Türk Respublikasının Xarici İşlər naziri Bəhram xan Naxçıvanski, Naxçıvan SSR-in Təbrizdəki ilk konsulu – mühacir diplomat İsmayıl bəy Camalbəyov, mahir diplomat bacarığı ilə Moskva və Qars müqavilələrinin xalqımızın milli maraqlarına uyğun şəkildə bağlanmasında mühüm xidmətləri olan Behbud ağa Şahtaxtinski, İbrahim Əbilov və Rza Təhmasib kimi görkəmli diplomatlar Naxçıvanın diplomatiya tarixində silinməz izlər buraxmış şəxslərdir.

Naxçıvan Muxtar Respublikasına səfər edən yüksək səviyyəli nümayəndə heyətlərinin sayı ildən-ilə artır, həyata keçirilən islahatlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən digər dövlətlərə və onların muxtar qurumlarına nümunə kimi göstərilir. 2009-cu ildə Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşünün, 2012-ci ildə Azərbaycan, Türkiyə və İran Xarici İşlər nazirlərinin, eləcə də türkdilli ölkələrin gömrük xidməti rəhbərlərinin, 2014-cü ildə Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin üçtərəfli görüşlərinin Naxçıvanda keçirilməsi muxtar respublikanın xarici siyasət müstəvisindəki əhəmiyyətinin mühüm göstəricisi olmuşdur.

Muxtar respublikanın qonşu dövlətlərlə, xüsusilə Türkiyə və İran ilə əlaqələri inkişaf edir. COVID-19 pandemiyasının beynəlxalq münasibətlər sistemində çətinliklər yaratmasına baxmayaraq, 2020-2021-ci illər ərzində Türkiyə Respublikasının sabiq Baş Naziri Binəli Yıldırımın, İnsan Hüquqları üzrə müvəkkili (Baş Ombudsman) Şərəf Malkoçun, Ticarət nazirinin müavini və Gömrük İdarəsinin rəisi Rza Tuna Turaqayın, İran İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Cavad Zərifin, İslami Şura Məclisinin Milli Təhlükəsizlik və Xarici Siyasət Komissiyasının sədri Müctəba Zonnourinin, Yollar və Şəhərsalma naziri M.Eslaminin rəhbərlik etdiyi nümayəndə heyətlərinin muxtar respublikaya rəsmi səfərə gəlməsi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovla görüşməsi, həmçinin bu dövrdə Türkiyə, İran, Fransa, Yaponiya və İsveç səfirlərinin muxtar respublikaya səfərləri xarici əlaqələrin yüksək səviyyədə olduğunun göstəricisidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2005-ci il oktyabrın 31-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin yaradılması haqqında Fərman imzalamışdır. İdarə yarandığı gündən öz səlahiyyətləri daxilində Naxçıvan Muxtar Respublikasını xarici dövlətlər və beynəlxalq təşkilatlarla münasibətlərdə layiqincə təmsil edir. Naxçıvan Muxtar Respublikasında dövlət protokolunun həyata keçirilməsini təmin edən idarə muxtar respublikada fəaliyyət göstərən xarici dövlətlərin diplomatik nümayəndəliklərinin, eləcə də Naxçıvana səfər edən xarici nümayəndə heyətlərinin dövlət hakimiyyəti orqanları ilə münasibətlərini və fəaliyyətlərini əlaqələndirir, bu əlaqələrdə daim iştirak edir və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirir. Pandemiya ilə əlaqədar idarə diplomatları ötən dövr ərzində xarici ölkələrdə təşkil olunan, eləcə də ADA Universitetinin təşkilatçılığı ilə keçirilən bir çox kurslarda onlayn şəkildə iştirak edərək təcrübə, bilik və bacarıqlarını artırmışdır. Hazırda Azərbaycanın xaricdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərində idarənin 22 əməkdaşı ezamiyyədədir. Onlar ölkəmizin İran, Malayziya, Hindistan, Pakistan, Tacikistan, Türkmənistan, Özbəkistan, Belarus, Yunanıstan və Ukraynadakı səfirliklərində, eləcə də Təbriz, İstanbul və Qars şəhərlərindəki Baş Konsulluqlarında Azərbaycan Respublikasının maraqlarını layiqincə müdafiə edirlər. Vaxtilə idarədə çalışmış diplomatlardan bir nəfəri səfir, iki nəfəri isə baş konsul kimi yüksək vəzifələrdə təmsil olunur.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir:* ***“Diplomatiya sıravi peşələrdən deyil. O, xalqın milli və siyasi maraqlarına birbaşa təsir göstərən fəaliyyət sahəsidir. Yaxşı işlənmiş və əsaslandırılmış diplomatiyası olmayan dövlətlər siyasi səhnədən silinməyə məhkumdurlar...”*** *Bu fikirləri əldə rəhbər tutan idarənin kollektivi bundan sonra da peşəkar kadr kimi yetişəcək, ölkəmizin milli və siyasi maraqlarının qorunmasında yorulmadan fəaliyyət göstərəcəkdir.*

***Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin mətbuat xidməti***

*Muxtar respublikamızda pərakəndəçilik sektoru ilə bağlı mövzulara bir neçə dəfə toxunmuşuq. Bu da səbəbsiz deyil. Çünki pərakəndəçilik bu gün artıq həyatımızın bir parçasına çevrilib və bu sektor olmadan iqtisadiyyatın inkişafı mümkün deyil və əbəs yerə onu “biznesin güzgüsü” adlandırmırlar. Pərakəndəçilik sektoru istehsalçı ilə istehlakçını görüşdürən, keyfiyyətli məhsulu tanıdan, brendə çevirən, keyfiyyətsiz məhsulu isə bazardan çıxaran, ehtiyac və tələb meyarlarını müəyyənləşdirən, istehlakçılara alış-veriş (ümumilikdə isə davranış) mədəniyyətini öyrədən böyük bir sektordur. Bu həm də elə iqtisadi sektordur ki, burada yeniliklər ilbəil, aybaay yox, günbəgün baş verir. Bu da təbiidir. Ona görə ki, həyatımızda baş verən istənilən iqtisadi yeniliyi bizə bu sektor çatdırır.*

# Pərakəndəçilik sektoru geniş inkişaf perspektivlərinə malikdir





Muxtar respublikada pərakəndəçilik sektorunun inkişafından bəhs edərkən bu sektorun ötən dövrdə keçdiyi yola nəzər salmaq imkan verir ki, yenilikləri daha yaxından görə biləsən. Bir zamanlar məhdud növ və çeşiddə məhsullarla alıcılarını təmin etməyə çalışan ticarət obyektləri bu gün artıq vizual görüntüsü xoş təsir bağışlayan, komfortlu, işıqlı, seçim imkanları daha çox olan mağaza, alış-veriş mərkəzləri ilə qarşımıza çıxır. Əvvəllər aldığımız məhsulların böyük bir həcmini idxal məhsullar təşkil edirdisə, bu gün artıq ticarət şəbəkələrində satılan məhsulların böyük bir qismi yerli müəssisələrin istehsalıdır. Əgər əvvəllər alıcılar daha çox idxal məhsulların keyfiyyətinə inanır və alırdılarsa, bu gün istehlakçılar yerli məhsullara daha çox üstünlük verirlər. Bir zamanlar istehlakçılar aldıqları məhsulların keyfiyyəti ilə bağlı problemlərlə qarşılaşanda çıxılmaz vəziyyətdə qalırdılarsa, bu gün artıq hər bir yerli istehsalçı öz məhsuluna qəti şəkildə cavabdehlik daşıyır və alıcılar qarşılaşdıqları problemlərlə bağlı öz fikirlərini lazımi ünvanlara çatdıra bilirlər. Eyni zamanda onlar bu hüquqlarından istifadə edərək istehlakçı mənafelərini qoruya bilirlər. Bu deyilənləri müxtəlif xidmət sahələrinə də aid etmək olar. Bəs bu gün muxtar respublikanın pərakəndəçilik sektorunda hansı yenilikləri müşahidə edirik?

Pərakəndəçilik sektorunun inkişafı yerli istehsalın inkişafı ilə birbaşa əlaqəlidir. Dünya təcrübəsi də göstərir ki, hansı ölkələrin iqtisadiyyatı daha çox istehsal üzərində qurulub, həmin ölkələrdə pərakəndəçilik sektoru da davamlı inkişaf edir. Bu amilin təsdiqi ölkədaxili regionlarda da özünü göstərir. Məsələn, son illərdə muxtar respublikada özəl sektorun inkişafına göstərilən dövlət dəstəyi sayəsində yüzlərlə yeni istehsal və xidmət sahələri yaradılıb. Nəticədə, məhsul istehsalı artıb, xidmət sahələrinin həcmi genişlənib. Bu da, öz növbəsində, yeni ticarət mərkəzlərinin yaradılmasına və ya mövcud olanlarda məhsulların növ və çeşidlərinin artırılmasına, yeni xidmətlərin təklif olunmasına geniş imkanlar açıb. Əgər 10 il bundan əvvəl yerli sahibkarlar mağaza üçün şəhər mərkəzini və yaxud əhalinin daha çox hərəkət etdiyi ünvanları seçirdilərsə, bugünkü dövrün marketinq tələbləri sübut edir ki, indi şəhərdən kənarda da müasir ticarət obyektləri yaratmaq və işləmək mümkündür. Son illərin alış-veriş ünvanlarından olan “Cahan” AVM, “Danyeri” və “Çəmən” market kimi ticarət müəssisələri bunu bir daha təsdiq edir. Səbəb isə çox sadədir. Bu tipli ticarət obyektləri müştərilərə daha çox növ və çeşiddə məhsul təqdim edir, alış-veriş zamanı müxtəlif iaşə xidmətlərindən istifadə etmək mümkündür, avtomobillər üçün parkinq sahələri var və sair. Digər tərəfdən son illərdə biz həm də bu tip ticarət obyektlərində əczaxana bölmələrinin fəaliyyət göstərdiyini görürük. Bu konsepsiya kənardan gəlsə də, artıq Azərbaycanda da tətbiq olunur və istehlakçıların marağını təmin edir.

Pərakəndəçilik sektorunun son dövrlərdə ən böyük nailiyyətlərindən biri burada ixtisaslaşmanın təmin olunmasıdır. Əvvəllər fərqli kateqoriyalara malik məhsulların satışı yalnız bir mağazada alıcıya təklif olunurdusa, yeni yaranan mağazalarda fərdiliyin qorunmasına üstünlük verilir. Məsələn, əvvəllər hər hansı ərzaq mağazasının bir küncündə müxtəlif xırdavat növünə (geyim, oyuncaq və sair) rast gəlinirdisə, indiki mərhələdə onlardan yalnız birinə üstünlük vermək tələblərə daha dolğun cavab verir. Və yaxud əvvəllər hər hansı geyim mağazasının bir bölümündə idman aksesuarlarına və geyimlərinə rast gəlinirdisə, indi sırf idman məhsulları üçün mağaza işlətmək daha sərfəli hesab edilir. Yəni mağaza artıq bir istiqamətdə ixtisaslaşır. Nəticədə, təqdim olunacaq məhsulun çeşidi artır, istehlakçıların seçim imkanları çoxalır, satıcının özü isə bu sahədə böyük təcrübə toplayır. İxtisaslaşmanı zəruri edən də pərakəndəçilik sektorunun uğurudur. Bunun məntiqi izahı belədir ki, iqtisadi inkişaf təmin olunduqca, insanların maddi vəziyyəti yaxşılaşdıqca tələbatları da artır. Mağazalar isə bunu hərtərəfli təmin etmək üçün tələbata uyğun yanaşmanı üstün tuturlar. Elə buna görədir ki, son bir neçə ildə Naxçıvan şəhərində sırf kimyəvi yuyucu məhsullarının, musiqi alətlərinin, unlu şirniyyat növlərinin, uşaq geyimlərinin, idman mallarının, elektrikli məişət avadanlıqlarının və onların ehtiyat hissələrinin satıldığı onlarla ixtisaslaşmış mağazanın fəaliyyətə başladığını müşahidə edirik.

Pərakəndəçilikdə yeni konsepsiyalardan biri də onlayn satış və xidmətlərin sayının artmasıdır. İstər mağazaçılıqda, istər daşımaçılıqda, istərsə də restoran biznesində onlayn fəaliyyətin genişlənməsi 2020-ci ildə də özünü büruzə verdi. Xüsusilə pandemiya ilə bağlı məhdudiyyətlərin tətbiqi onlayn satış və xidmətlərə marağı artırdı. Muxtar respublikada da bu sahədə müəyyən yeniliklərin (Naxçıvan Onlayn Marketin, karqo şirkətlərinin fəaliyyətə başlaması) şahidi olduq.

Dünya pərakəndəçilik sektorunda son illərin mühüm konsepsiyalarından biri də istehsalçıların özlərinin mağazaçılığa meyillənməsidir. Yəni istehsalçı məhsulunu digərləri ilə yanaşı, özünün təşkil etdiyi satış obyektlərində də müştəriyə təqdim edir. Belə olan halda sahibkar həm qismən gəlirlərini artırır, həm istehlakçı ilə təmasda olaraq təklif və şikayətləri birbaşa ondan dinləmək imkanı qazanır, həm də məhsulun ixtisaslaşmasını mükəmməl apara bilir. Hansı ki bu ixtisaslaşmanın düzgün kommunikasiyası məhsulun brendə doğru gedən yolunu açır. Və ya, əksinə, indi elə bir brend məhsul tapmaq mümkün deyil ki, özünün ixtisaslaşmış satış mərkəzi olmasın. Bu gün dünyanın ən məşhur pərakəndə şəbəkələrində satılan məhsulların 30-40 faizi şəbəkənin öz məhsulları olur. Buradan isə o qənaətə gəlmək mümkündür ki, gələcəkdə istehsalçı şirkətlərin fərdi mağazalara sahibliyi daha geniş yayılacaq. Bunu muxtar respublikamızda da müşahidə edə biləcəyik. Ümumilikdə isə pərakəndəçilik sektorunun yaxın gələcəkdə ən böyük uğuru rəqabətqabiliyyətli məhsulların xarici bazarlara çıxışını təmin etmək olacaq. İnanırıq ki, yerli istehsalçılarımız dövlətin də dəstəyi nəticəsində bunu bacaracaqlar.

**✍ Səbuhi HƏSƏNOV**

## Rəssam, heykəltəraş Elman Cəfərovun 70 illik yubileyi qeyd olunub



Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində fakültənin müəllimi, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Elman Cəfərovun rəsm, heykəltəraşlıq və qrafika janrında işlədiyi əsərlərdən ibarət yubiley sərgisi təşkil edilib.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev rəssamı “şəxsiyyəti ilə sənəti bütünləşən sənətkar” adlandırıb və təşkil edilən sərgini yubilyarın yaradıcılığına töhfə kimi dəyərləndirib. Diqqətə çatdırılıb ki, Elman Cəfərov yaradıcılıqla məşğul olmaqla bərabər, həmçinin dəyərli bir pedaqoqdur. Rektor vətənpərvərlik motivləri qabarıq nəzərə çarpan bu yaradıcılığın gənc nəslə örnək olduğunu diqqətə çəkib.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva vurğulayıb ki, bu illər ərzində dəfələrlə ümumittifaq və respublika sərgilərində uğurla iştirak edən Elman Cəfərovun ilk monumental əsəri Naxçıvan şəhərində Xalq qəhrəmanı Babəkin at üzərində yaradılmış obrazıdır. Bildirilib ki, sonra heykəltəraş Dədə Qorqudun, Babək rayon mərkəzi üçün Babəkin ayaqüstü heykəlini işləyib, I və II Qarabağ müharibəsində iştirak etmiş şəhidlərimizin büst və barelyeflərini hazırlayıb.

Azərbaycan Respublikasının Xalq rəssamı, professor Hüseynqulu Əliyev, AMEA-nın müxbir üzvü Tofiq Əliyev yubilyarla bağlı ürək sözlərini bölüşüb, ona arzularını çatdırıblar.

İncəsənət fakültəsinin dekanı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov Elman Cəfərovu universal bir sənətkar kimi dəyərləndirib. Qeyd edilib ki, rəssamın sərgidə 40-dan çox əsəri nümayiş olunub. Bildirilib ki, Elman müəllim rəsm, heykəltəraşlıq üslubunda çəkilən əsərlərlə yanaşı, ali təhsil ocağında ilk dəfə qrafika-illüstrasiya janrında sərgilənən ilk əsərlərin müəllifidir.

Tədbirdə çıxış edənlər yubilyarı təbrik edib, ona cansağlığı, yaradıcılıq uğurları arzulayıblar.

Sonra yubilyar II Qarabağ müharibəsi şəhidi Xansu Qurbanov, Aşur Cəmiyevin barelyefini ailə üzvlərinə təqdim edib. Şəhid Xansu Qurbanovun anası öz minnətdarlığını ifadə edib.

Qeyd edək ki, Elman Cəfərov 1951-ci ildə Naxçıvan şəhərində anadan olub. Orta təhsilini Naxçıvan şəhər Əkbər Ağayev adına internat məktəbində alan Elman Cəfərov 1968-ci ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə qəbul olub və həmin məktəbi fərqlənmə diplomu ilə bitirib. Təhsilini 1975-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun Rəssamlıq fakültəsində davam etdirən Elman müəllim 1980-ci ildə həmin institutu fərqlənmə diplomu ilə bitirib və Rəssamlar İttifaqının Bədii fondunda əmək fəaliyyətinə başlayıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Maarifləndirici tədbir keçirilib

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun təşkilatçılığı ilə Şahbuz rayonunda “Dövlət sosial sığorta sistemində fərdi uçotun təşkili və məcburi dövlət sosial sığortası üzrə ödəmələrin hesablanması və ödənilməsi” mövzusunda keçirilən tədbiri Şahbuz Rayon İcra Hakimiyyətinin əməkdaşı Cəlal Paşayev açıb.

Dövlət Sosial Müdafiə Fondunun Sosial sığorta və fərdi uçot şöbəsinin müdiri Əli Həsənov, daxili audit sektorunun müdiri Şamil Abbasov, Şahbuz rayon şöbəsinin müdiri Zamin Qurbanov tədbirdə çıxış ediblər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Müəllimlər İnstitutu

### *Fəlsəfə doktoru hazırlığı üzrə 2021-ci il üçün doktoranturaya və dissertanturaya qəbul elan edir*

“Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2021-ci il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları”na əsasən Naxçıvan Müəllimlər İnstitutunda fəlsəfə doktoru hazırlığı üzrə 2021-ci il üçün doktoranturaya və dissertanturaya qəbul planı aşağıdakı kimidir:

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla* |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | | |
| | | | o cümlədən | | |
| | | | əyani | qiyabi | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə) | 3 | 1 | 2 | 1 |
| 5803.01 | Müəllim hazırlığı və fəaliyyəti | 1 | | 1 | 1 |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 2 | | 2 | 1 |
| 5808.01 | Sosial pedaqogika | | | | 1 |
| 6104.01 | Pedaqoji psixologiya | 2 | | 2 | 1 |
| | **Cəmi:** | **8** | **1** | **7** | **5** |

**Dissertanturada hazırlıq ali təhsil müəssisələrinin öz əməkdaşları üçün həmin müəssisənin hesabına, digər şəxslər üçün isə ödənişli olacaq.*

Müəyyənləşdirilmiş qrafikə əsasən xarici dil imtahanını müvəffəqiyyətlə vermiş şəxslər 1,2,3 sentyabr 2021-ci il tarixlərdə fəlsəfə fənnindən, 9,10 sentyabr 2021-ci il tarixlərdə isə ixtisas fənnindən qəbul imtahanları verəcəklər. Mövcud qaydalara əsasən qəbul imtahanlarını müvəffəqiyyətlə vermiş namizədlər müsabiqə əsasında seçdikləri ixtisas üzrə doktoranturaya qəbul olunurlar.

Doktoranturaya sənəd qəbulu “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TMİS) vasitəsilə elektron qaydada 15 iyul 2021-ci il tarixədək həyata keçirilir. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Təhsil Nazirliyinin *portal.edu.az* saytına daxil olmalı, orada “Ali və orta ixtisas təhsili müəssisələrinin tələbə qəbulu və qeydiyyatı” xidmətini seçərək təqdim olunan təlimatlara uyğun şəkildə qeydiyyatdan keçməlidirlər.

Əlavə məlumat almaq üçün Naxçıvan Müəllimlər İnstitutunun *nmi.edu.az* saytına, habelə institutun elmi hissəsinə (otaq № 208, tel: (+994 36) 544-04-29) müraciət etmək olar.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 2***
***Naxçıvan Müəllimlər İnstitutu***

### *İtmişdir*

Əliyev Kamil İntiqam oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Qarahəsənli kəndində yaşamış Hüseynova Əfruz Bayram qızının adına verilmi JN-144$^A$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 544